# AŞPA prezidentinin fikirləri siyasi mədəniyyətsizlikdən irəli gəlir

**"AŞPA regionda ən böyük insan hüquqları pozuntusuna - bir milyondan çox azərbaycanlının Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmasına illərlə biganə qaldı. Qurum özünün anti-Azərbaycan mahiyyətini və Azərbaycan xalqına qarşı irqçi yanaşmasını dövlətimiz öz ərazilərini Ermənistanın işğalından azad etməsindən sonra da açıq şəkildə ortaya qoydu".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Vüqar Rəhimzadə deyib. O bildirib ki, ölkəmizin tarixi Zəfər qazanaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı, azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri anti-Azərbaycan dairələrin, o cümlədən Avropa Şurası Parlament Assambleyasının prezidenti Teodoros Rusopulos, Şvabe kimilərin yuxusunu ərşə çəkib. İnsan hüquqlarına hörmət etməyən bu şəxslərin AŞPA-da təmsil olunmaları fundamental insan hüquqları anlayışına ləkədir. "Teodoros Rusopulosun "Alpha News" qəzetinə müsahibəsi zamanı ölkəmizin əleyhinə səsləndirdiyi yalan, cəfəng dolu fikirlər qəbuledilməzdir. Azərbaycan Xarici İşlər Nazirliyinin bildirdiyi kimi, Avropa Şurası nizamnaməsinin pozulması, AŞPA tərəfindən səlahiyyətlərin aşılması nəticəsində Azərbaycan əleyhinə addımdan sonra belə, Azərbaycan tərəfinin dialoqa açıqlığını nümayiş etdirməsinə baxmayaraq, Rusopulos, Şvabe və onlar kimi bir sıra şəxslərin davamlı şəkildə ölkəmizin beynəlxalq hüquqa və ədalətə söykənən mövqeyinə kölgə salmağa çalışdıqları məlumdur. AŞPA bu illər ərzində ikili standartlar əsasında apardığı anti-Azərbaycan siyasəti ilə xalqımızın haqlı nifrətini qazanıb. AŞPA prezidenti Teodoros Rusopulosun ölkəmizin əleyhinə səsləndirdiyi yalan dolu fikirlər, onun qərəzliliyi siyasi mədəniyyətsizlik, tərbiyəsizlik və nadanlıqdır. Bu, diktator Rusopulosun rəhbərlik etdiyi qurumda hökm sürən acınacaqlı vəziyyətin göstəricisidir. Frank Şvabe də ondan geri qalmır", - deyə Vüqar Rəhimzadə əlavə edib.

Deputat qeyd edib ki, bu şəxsin fəaliyyəti korrupsiya, rüşvət qalmaqalları, islamofob çıxışlarla zəngindir. Frank Şvabenin ənənəsinə uyğun olaraq qeyri-ciddi, yalan, cəfəng fikirlərlə gündəmə gəlməsi onun sifarişli fəaliyyətini təsdiq edir. Azərbaycanı qaralamaq üçün erməni lobbisindən və anti-Azərbaycan dairələrdən aldığı sifarişləri yerinə yetirən Şvabenin bu cəhdləri heç bir fayda verməyəcək.

V.Rəhimzadə vurğulayıb ki, Qərbin bəzi dairələrinin riyakar, ikili siyasətinin bariz nümunəsi olan bu kimi hallar güclü, qüdrətli dövlət olan Azərbaycanın müstəqil siyasətinə təsir göstərmək iqtidarında deyil: "Şübhəsiz, mayası ölkəmizə qarşı qərəzdən yoğrulan belə çirkin təbliğatlara tutarlı cavab Azərbaycanın bugünkü reallıqlarıdır".

*Əsmər QABİLQIZI,*
*"Azərbaycan"*

